

# Rəşid Ağamalıyev

**Rejissor, prodüser, kinoşunas**

Rəşid Eldar oğlu Ağamalıyev 1992-ci il oktyabrın 28-də ziyalı ailəsində anadan olmuşdur.

2007-2010-cu illərdə Rüstəm İbrahimbəyovun Beynəlxalq Kino məktəbində sərbəst dinləyici qismində iştirak edib.

2015-ci ildə Hollandiyanın Utrext səhərinin eyniadlı universitetində "Fəlsəfə" ixtisası üzrə təhsil almışdır.

2017-ci ildə Çexiya Respublikasının Olomouts şəhərinin Palatski Universitetində "Kinoşünaslıq" və "İngilis dilinin filologiyası" ixtisasları üzrə bakalavr dərəcəsi alıb.

2018-ci ildə Praqada Səhnə Sənətləri akademiyasının Kino və Televiziya fakültəsində "Kinoprodüser" ixtisası üzrə kurs bitirib.

"Bayatı Şiraz" (2014) bədii klipinin, "Aşıq Qərib. Azərbaycanın məhəbbət dastanı" (2014), "Züleyxa ilə dialoqlar" (2019) sənədli filmlərinin və "Tar dərsləri" (2015-2017) maarifləndirici videolarının müəllifdir.

2018-ci ildə çap olunan "Azərbaycan animasiyası" kitabının həmmüəllifi və baş redaktorudur. Kitab azərbaycan və rus dillərində tərtib olunub və ötən əsrin 30-cu illərindən bu günlərədək Azərbaycan animasiyasının inkişafı tarixini əhatə edir.

2018-ci ildə yaradılmış ilk Bakı Beynəlxalq Animasiya Festivalı – ANİMAFİLM-in təsisçisi və direktorudur.

2019-cu ildə Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan animasiyasının 50-ci ildönümü ilə əlaqədar 2019-cu ildə Yunanıstanın AnimaSyros, Polşanın StopTrik və Gürcüstanın TOFUZİ Beynəlxalq Animasiya Festivallarında Azərbaycanın kult retrospektiv cizgi filmlərinin nümayişini həyata keçirib.

Hazırda Rəşid Ağamalıyev Çexiya Respublikasının Praqa şəhərində yaşayır və kino və animasiya sahələrində fəaliyyət göstərir.